# Rəqəmsal dünyada təhsilin idarəedilməsi prespektivləri

**Nəzakət İbrahim qızı Zamanova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
**E-mail:** znazakat@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. Ə.M. Abbasov,
p.ü.f.d., dos. O.K. Alxasov

**Açar sözlər:** informasiya cəmiyyəti, rəqəmsal, kiber hücum, sonxron, asinxron
**Ключевые слова:** информационное общество, цифровое, кибератака, синхронный, асинхронный
**Key words:** information society, digital, cyberattack, synchronous, asynchronous

XXI əsrin çağırışları ali təhsil müəssisəsi öz əhəmiyyətliyini sorğulamaq məcburiyyətindədir. Gələcəkdə ali təhsil müəssisələri (Alibabanın yaradıcısı Cek Maının) proqnozu: yalnız diplom verən bir müəssisəyə cevrilə bilər. Qeyri-rəsmi, qeyri-formal, aniformal təhsil formaları daha effektli ola bilər (8). Süni intellekt təbii intellektin önünə keçir, sinxron asinxronun verdiyi təhsil informasiya cəmiyyətində innovativ texnologiyanın köməyilə hər hansı bir təhsil müəssisəsindən, daha əlverişli, daha əhəmiyyətli, ucuz, əlçatan və digər xüsusiyyətlərinə görə daha cəlbedici görünür. Belə bir dövrdə təhsil müəssisəsinin idarə edilməsi əslində texnoloji inqilab olan informasiyalarla idarəetmə mexanizmlərinə dayanır. İnformasiyanın bolluğu şəraitində innovatıv texnologiyaların inkişafı və onun təhsilin tendensiyalarında oynadığı rolu nəzərə alaraq, idarəetmənin informasiyalarla sistem şəkilində icrası dəyişikliklərə cavab verəcəyinə ümid yaradır. Bütün dövrlərdə problemlərin həll yollarını təhsil müstəvisində tapırlar. Əslində dövlətin gücü təhsil ocaqlarının gücü ilə ölçülür. Artıq ali təhsil müəssisələrinin informasiyalarla idarəsi obyektiv hadisə olub təhsilin dinamikliyini təmin edə bilir. Araşdırmalardan məlumdur ki, təhsilin idarə edilməsi daim yenilənməyə ehtiyacı olan bir sistemdir. Hər bir təhsil müəssisəsi innovativ texnologiyanın köməyi ilə dünya təhsil sisteminə daxil olur və onun bir hissəsini təşkil edir. Təhsil sistemləri müxtəlif olsa da, məqsədlərdə ümumi cəhətlər çoxdur. Dünya təhsil sistemindəki idarəetmə modullarında innovatıv idarəetmə ali təhsil sferasında geniş şəkildə tətbiq edilən ayrı-ayrı modellərdən ibarətdir. İnformasiya ilə idarə etmənin mahiyyəti əslində idarəetmədə hər kəsin iştirakını təmin edə bilir və beləliklə, ictimai idarəetməni, vətəndaş həmrəyliyini qlobal müstəviyə çevirİr. Bəzən düşünmək olar ki, hədsiz informasiya bolluğunda xaos yarana bilər, amma sistemli idarə etmək problemlərin üzə çıxmasını asanlaşdırdığına görə həllini də mümkün edir. İnformasiya ilə idarəetmə sistemi ilk növbədə müəssisə daxilindəki əlaqələr lokal əlaqələr, əlbəttə hüququ baza prinsiplərinə dayanıqlı, vəzifə, məsuliyyət və hesabatlılıq müstəvisində baxılır. Bu hesabatlığın idarəetmə strukturunda hər kəsə və əsasən himayədarlar şurasına və ictimaiyyətə açıq olması əslində çoxlu təşəbbüskarların cəlbi və heç tükənməyən yardım bazasını da yaratmış olar. Təhsilin idarə edilməsi aydındır ki, ilk öncə pedaqoji-elmi-yaradıcı fəaliyyətin idarə edilməsinə əsas diqqətə alınmaqla, informasiya ilə idarəetmə onun metodologiyasını da getdikcə təkmilləşdirir. Texnologiya ilə idarəetməni məşhur kommunikasiyalar üzrə tədqiqatçı Nil Postmanin dediyi kimi: "Hər texnologiyanın öz fəlsəfəsi var və texnologiyalar insana yol göstərir, onların ağlından istifadəni səfərbər edir" (6, s. 37).

Təhsilin idarə edilməsində kommunikasiyanın oynadığı rol sonsuzdur. Təhsilalanlar bir

deyil, çoxlu sayda mənbələrdən məlumatı texnologiyanın köməyi ilə alırlar. E-təhsil sistemi ənənəvi təhsil sistemi və bu sistemə bağlı müəllim hegemonluğunu sona endirərək, təhsilverən və təhsilalan anlayış rollarının da dəyişməsinə səbəb olur. Bu sistem informasiyalarla idarəetmə mühitində üç əsas əlaqə tipi: öyrənən-mənbə, öyrənən-öyrənən və öyrənən–öyrədən arasında reallaşan qarşılıqlı əlaqəni yaradır. Burada öyrədənin rolu biliyin ötürülməsində məsləhətçi, eyni zamanda öyrənmədə ortaq rolunu da ifadə etməklə yanaşı, çoxlu sayda mənbədən qidalanan təhsilalanların yönləndirilməsini qəlibə salmaq olmaz. İnforrmasiyalarla idarəetmədə onlayn mühitində imkanlar limitsizdir, buradan da gəlinən nəticə təhsilalann səviyyəsi nəzərdə tutulan standartları ötə bilər. Klassik auditoriya mühitindən fərqli olaraq, viritual imkanlarla təhsilalanlar istifadə etdikləri təhsil materialları vasitəsilə öz fərdi ehtiyaclarına uyğun forma mənimsəyirlər. İnformasiyalarla idarəetmə imkanları təhsil alanın istədiyi səviyyəni yaratmaq xüsusiyyətlərinə malikdir. Rəqəmsal dünyada təhsilin idarə edilməsi təhsil müəs sisələrinin innovativ yeniliklərlə, əlverişli onlayn mühitində effektiv informasiyalarla idarəetmə modeli  məqbul yoldur. Təhsil müəssisələri distant, ixtisaslar üzrə proqram şəkilində fənlərin tədrisinin xüsusi proqramlar halında onlayn tədrisinin təşkili mümkündür. Buna uyğun olaraq qardaş ölkə Türkiyədə təhsilalanların vahid şəbəkəyə çıxışı olan tablet kompüterlər və ağıllı lövhələrlə təhsilin təşkilini nəzərdə tutan “FATİH” layihəsini nümunə göstərmək olar (6, s. 71). Əlavə məşhur Xanın təhsil modelində 4 minə yaxın çox müxtəlif onlayn dərs materiallarından öyrənən fərd gündəlik seçiminə uyğun bu kursun öz səviyyəsi daxilində öyrənə bilir. Əslində informasiyalarla idarəetmə qeyri formal  təhsil alma yollarını daha genişləndirir (7, s. 8-20). Aparılan araşdırmalardan məlum olur ki ölkəmizdə sərbəst olaraq əvvəlki illərlə müqayisədə coxlu onlayn dərslər var. Bunlardan dillər üzrə, kompüter dərsləri və s. mövcud olub getdikcə təkmilləşir. Bu sahədə ali pedaqoji təhsil müəssisəsi müəllim və tələbə eyni zamanda təşəbbüskar heyət tərəfindən onlayn müxtəlif fənlər üzrə dərslər toplusu, ilk öncə ingilis dilində sonralar yaxın şərq ölkələrinin dillərində saitlərdə yerləşdirilə bilər. Bu dərslər həm təhsil müəssisəsinə gəlir gətirər həm də onun cəlbediciliyini artırar. Təhsil müəssisəsinin vahid informasiya mühitinin  formalaşması: 1) təhsil müəssisəsinin daxili şəbəkəsi, 2) təhsil müəssisəsinin sistemi yaradıldıqdan sonra daha yüksək səviyyəsi  müəssisə xarici şəbəkəsi məqsədin reallaşdırılmasında əsas istiqaməti müəyyənləşdirilməsində nəticənin əldə edilməsində başlıca rol ala bilər. Təhsil müəssisəsinin saytı tədris prosesində olan imkanları:

1. Təhsil prosesində iştirakçıların interaktiv ünsiyyətinin formalaşması;
2. İstifadəçilərin sərbəst tanışlığı;
3. Yeni informasiyaların saytda yerləşdirilməsi;
4. Müəyyən kod və parol vasitəsilə xidmət və informasiya ilə tanışlıq;
5. İştirakçıların fərdi informasiyaların yerləşdirilməsi;

Verilənlər bazasında  işin icrasının nəzarət sistemi qərarların avtomatlaşdırılmasına xidmət edə bilir, təhsil müəssisəsinin  informasiya təhsil məkanına müxtəlif formalarda  təzahür edən konstruksiya kimi də baxmaq olar.

Təhsil alanlarının birgə fəaliyyətinin fiziki məkanı;

Hipermətnlərin virutal məkanı;

İnformasiya fəzasının iyerarxik sistemləri;

Təhsil ocağının informasiya məkanın müxtəlif formalarda təşkili mümkündür.

1.İnformasiya səviyyələrinin  alt səviyyələrinin strukturu;

2.İnformasiya selinin istiqamətlərinin təyin edilməsi;

3.İnformasiya spektrinin iştirakçıları, onların maraq dairəsi, əlaqələrinin müəyyən edilməsi.

Hüququ baza sənədlərində qeyd edildiyi kimi, informasiya təhlükəsizliyi dövlətin milli təhlükəsizliyidir. Təhsil ocağının xüsusilə pandemiya dövründə bütün dərslərin virtual tədrisində, ilk növbədə texnologiyanın təhlükəsizliyi, kriminal hücumlardan qorunmanın mexanizmləri daima diqqət mərkəzində olmasının, təhsil ocaqlarının özünü həm daxili həm də xarici hücumlardan qorunmasının prioritet olmasından asılıdır. Təhsil müəssisəsinin daxilində və kənardan da müxtəlif məqsədlərlə kiber hücum ola bilər. Müəssisə daxilində olan hücumlardan:

— Təhsil ödənişinə hücumu;
— Data bazadan məlumatların oğurlanması;
— Dərc olunmamış məqalə yaxud elmi araşdırma məlumatının götürülüb şantaj məqsədlər üçün istifadə edilə bilməsi;
— Tələbələrin şəxsi məlumatlarının götürülməsi;
— Bəzi statistik məlumatlar götürülüb dəyişdirilə bilər və s. hücumlardan qorunmalıdır.

Göründüyü kimi, innovativ texnologiyanın üstünlüklərinin zərərli məqsədlər üçün istifadə edilməsinin qarşısının alınması, təhlükəsizliyin qorunması çox vacibdir.

Təhsil müəssisəsini informasiyalarla spesifik idarəetmə modeli əsasən iyerarxik qaydada akademik heyət və himayədarlar şurası tərəfindən birgə idarəsi ən effektli yol sayılır. Himayədarlar şurasının tərkibi müxtəlif tərkibdə ola bilər. Nəzarət prosesinin idarə olunmasında idarəetmənin azad proqram təminatında ictimai rəy daim nəzərə alınmalıdır. Rəqəmsal dünyada təhsildə baş verən yeni tendensiyalar və gəlinən nəticə təhsilin idarə olunmasının sistemli innovativ yollarla idarə ediməsi qaçılmazdır. Akedemik heyət yaxud elmi şura himayədarlar şurası ilə birlikdə idarə edilməsi və nəzarət (monitorinq, içtimai rəy) aşağıdakı sxemdə




göstərilmişdir.

İnformasiyalarla innovativ sistemli idarəetmə, bir sıra tədqiqatçılar ümumiyyətlə, təhsilin informasiyalaşmasını mahiyyətcə müasir inqilab da adlandırırlar (5).

"Sənaye 4.0" konsepsiyası ilə tamamilə yeni bir istiqamətdə inkişaf etməklə, təhsil üzərinə düşən vəzifələr dünya iqtisadiyyatının gələcək inkişafı ilə bağlı istiqamətlərin müəyyən edilməsində başlıca rola malikdir. Rəqəmsal inqilab, həyatımızı və yaşadığımız cəmiyyətləri əvvəllər görülməmiş dərəcədə yüksək sürətlə və böyük miqyasda transformasiyaya məruz qoyaraq, bir tərəfdən çox geniş imkanlar, digər tərəfdən isə bir çox ciddi çağırışlar və təhdidlər yaradır. Bu gün dünya miqyasında rəqəmsal iqtisadiyyatı və onun yaratdığı dəyəri ölçmək çox çətindir. İlk növbədə ona görə ki, hələ də rəqəmsal iqtisadiyyatın geniş qəbul edilmiş bir tərifi yoxdur və onun idxalı da mümkün deyil, yalnız texnoloji avadanlıqları idxal etmək olar (6, s. 10-12).

**Məqalənin aktuallığı.** Rəqəmsal dünyada təhsilin idarəedilməsinin informasiya bolluğu şəraitində yeni yolların axtarılmasının vacibliyi göstərilmişdir.

**Məqalənin elmi yeniliyi**. İlk dəfə olaraq informasiya ilə idarəetmənin sistem şəkilində mümkünlüyü göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məlumat bazalarından istifadə etməklə idarəetmə sistemi təhsilin inzibati idarəetmədən ictimai idarəetmənin təmin edilməsində rol oynaya bilər.

## Ədəbiyyat

1. A.O. Mehrabov. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.
2. C. Valehov. Milli təhsil müasir transformasiyalar prosesində. Bakı: Təhsil, 2015.
3. "Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar" mövzusunda Beynəlxalq konfransın materialları. Bakı: UNEC-2020, nəşriyyat, 52sISBN 978 9952-501-19-361.
4. Menecment. Bakı: Təhsil və elm, 2007.
5. Гор А. Атака на разум. Санкт-Петербург: Амфора, 2008.
6. Воранина Т.Р. Философские проблемы образования в информационном обществе. Афторефарат дисс. На соискание ученой степени доктора философских наук. М., 1995.
7. Larry Lessig. Free culture. New York Regiuin Press. 2004, p. 42.
8. https://az.wikipedia.org/wiki/CekMa

**Н.И. Заманова**

## Перспективы управления образованием в цифровом мире

## Резюме

В цифровом мире управление образованием может удовлетворить потребности путем создания системы, основанной на информации из различных источников, с учетом тенденций с помощью инновационных технологий. Системный подход может обеспечить динамику и разумность управления. Онлайн обучение ускоряет поиск новых идей и методик. Хотя технические средства информации облегчают управление, они поднимают вопрос о защите информационной безопасности от внешних и внутренних угроз. Также возникает вопрос о разработке нового аспекта правовой базы защиты от кибератак.

**N.I. Zamanova**

## Prospects for educational governance in a digital world

## Summary

In a digital world, education governance can meet needs by building a system based on information from various sources, taking into account trends through innovative technologies. A systems approach can provide dynamic and intelligent management. Online learning accelerates the search for new ideas and techniques. Although technical media facilitate management, they raise the issue of protecting information security from external and internal threats. The question also arises about the development of a new aspect of the legal framework for protection against cyber attacks.

**Redaksiyaya daxil olub:** 07.10.2020